BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 *Humanitar elmlər seriyası* 2013

# ƏDƏBİYYATŞÜNASLIQ

**UOT 82-2**

## MUSAGÖYDƏN BAŞLANAN ÖMÜR

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***İfratAliyeva@hotmail.ru***

*Müasir Azərbaycan şeirinin ilk yaradıcılarından olan Mirvarid Dilbazi 30-cu illərdə poeziya aləminə gələn S.Vurğun, M.Müşfiq, R.Rza, S.Rüstəm, M.Rahim, O.Sarıvəlli kimi qüdrətli söz ustaları arasında görünməyə başlayır.*

*Yaşadığı, yazıb-yaratdığı dövrün ictimai-siyasi vəziyyətini, ədəbi proseslərin tələb və ehtiyaclarını aydın görən M. Dilbazi ilk qələm təcrübələrindən "Sənətkar və zaman", "Yazıçı və oxucu" prinsiplərinə sadiq qalmış, poeziyanın qüdrət və ləyaqətini qorumağa çalışmışdır.*

*Məqalədə Mirvarid xanımın lirik, epik əsərlərinin mövzu və tematikası, şairənin fərdi üslubu, özünəməxsus təkrarsızlığı geniş şəkildə təhlil olunur.*

**Açar sözlər:** üfüq, qərinə, ədəbi proses, əks-səda

Azərbaycan poeziyasının üfüqlərində müxtəlif qərinələrdə Məhsəti Gəncəvi, Ağabəyimağa Ağabacı, Heyran xanım, Aşıq Bəsti, X.B.Natəvan, Fatma, Kəminə, N.Rəfibəyli, M.Gülgün, H.Bülluri, Ə.Cəfərzadə, X.Hasilova kimi söz ustadları parlamışdır. Bu qvardiyaya başçılıq etmək şərəfi istedadlı xalq şairi Mirvarid Dilbaziyə nəsib olmuşdur desək, əsla yanılmarıq.

M. Dilbazi 1920-ci illərin ikinci yarısında ədəbi fəaliyyətə başlamış, ilk şeirini – "Qadınlar hürriyyəti" 8 mart qadınlar bayramı münasibətilə 1927-ci ildə yazmış, "Bizim səsimiz" (1934) ilk şeirlər kitabını çap etdirmişdir.

İlk qələm təcrübələrini çap etdirəndən ömrünün sonunadək şairənin əsas yaradıcılıq fəaliyyəti xalqla onun həyatında baş verən tarixi hadisələrlə bağlı olmuş, Qarabağ faciəsinin ağrı-acılarını ürək ağrısı ilə yanıqlı poeziya parçalarında əks etdirmişdir. Onun bir sıra əsərlərini hələ o zaman məhz şərq qadınının taleyinə həsr etməsi də tamamilə təbii idi. Çünki özünün yazdığı kimi "Mən ölümlər və sürgünlər, qadağanlar, milli qırğınlar və soyğunlar, milli təhqirlər, milli əsarət görmüş nəslin nümayəndəsiyəm. Gəncliyim, ahıllığım, qocalığım kəşməkəşli illərdən keçib. Atamın şəhid olmasıyla doğma kəndi-

mizdən, buz bulaqlı meşələrimizdən ayrılıb, anamızın göz yaşlarını qəlbimizə axıda-axıda bacımla mənim Daş Salahlı və şəhər həyatımız başlayıb" (s. 4)*. Analarımızın inqilabdan əvvəl çəkdiyi saysız-hesabsız möhnətləri az da olsa görən, şairə yeni həyatın qoynuna atılarkən qadınlara verilmiş geniş hüquqları müşahidə etmiş və qələmə sarılmışdır.

Akademik Bəkir Nəbiyevin yazdığı kimi "o zamandan neçə-neçə illər keçmiş, şairin yaradıcılıq üfüqləri genişlənmiş, mövzuları və ifadə vasitələri əlvanlaşmış, qələmi püxtələşmiş, şeir dili səlisləşmiş və onun daha böyük bir inamla ötdüyü nəğmələr geniş təsir qüvvəsi kəsb etmişdir" (s. 9-10)

Mirvarid Dilbazi şeirlərinin mövzu və məzmunu rəngarəngdir. Cəmiyyətdəki quruculuq işlərinin pafosu, yeni həyat və mədəniyyət quran xalqların həyatı, məişəti, fərdi cizgiləri, yeni nəslin bədii-estetik tərbiyəsinə yönəldilən lirik və epik şeirlər də öz əksini tapmışdır. Xalq tərəfindən bəyənilən "Dibçək gülü" adlı şeirindən bəhs etməyi lazım bilirik. Bu şeirdə təsvir olunur ki, bir-iki xırdaca çiçək açmış dibçək gülü qızılgülə tənə edir, özünün işıqlı otaqlarda bəsləndiyini, xalılar üstündə saxlandığını söyləyir, payızın küləklərini, qışın qarını vecinə almamağı ilə öyünür, hətta qızılgüldən də gözəl olduğunu iddia edir. Onun cavabında qızıl gül çox ibrətamiz sözlər deyir:

Mən dibçəkdə əkilib, evlərdə bəslənmədim,
Dibçək gülü olmağa heç vaxt həvəslənmədim.
Üstümdən qarlı qış da, yaşıl bahar da keçdi,
Acı payız yelləri, gur yağışlar da keçdi.
Al qönçələr yetirdim yazda budaqlarımda,
Sübhün şehi parladı əlvan yarpaqlarımda,
Köküm ana torpaqda, gözüm buludlardadır,
Söylə, a dibçək gülü, sənin kökün hardadır?! (s. 36).

Şair haqlı olaraq bu fikirdədir ki, "ən dəhşətli şikəstlik – mənəvi şikəstlikdir. Ən çətin yoxsulluq isə – fikir yoxsulluğudur".

M.Dilbazi ilk şeirlər kitabından ("Bizim səsimiz", 1934) başlamış son üç cildliyinə daxil edilmiş şeirlərinə qədər böyük yaradıcılıq yolunda öz dəstixəttinə sadiq qalmış, yeni məzmunlu şeirimizin rəngarəng nümunələrini yaratmışdır" (s. 20).

M.Dilbazi təbiətə məftun şairdir. Onun şeirlərində Azərbaycan bütün gözəlliyi ilə canlandırılır. O təbiətə göz açanda Göyəzəni, Avey dağını, Soyuqbulaq yaylasını, Dilican dərəsini görmüş, uşaqlıq illərini yaşadığı Musagöyün enişli-yoxuşlu dolama cığırlarını, Ağstafaçayın füsunkar sahillərini qarış-qarış gəzmişdi. Uşaqlıqdan məftun olduğu bu yerlər onun lirik poeziyasına bir zəriflik və romantik vüsət gətirmişdi. Bu romantik vüsət şairin kamala çatdığı illərdə gah gənclik xatirələri kimi, gah da şair duyğularının tərcümanı kimi bədii don geymişdir:

Necə doğru söyləmişlər: doğma vətənin.

* Sitatlar Mirvarid Dilbazinin "Biz od üstündə doğulduq" kitabından götürülmüşdür.

Başqa dildə söhbət edir küləkləri də.
Ayrı təhər ətir saçır çiçəkləri də.

M.Dilbazi 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində o qanlı, odlu çıxış və yazılarında oğullarını əyilməməyə, vüqarlı olmağa çağıraraq yazırdı: "Gözəlliyinə heyran olduğum, şəninə silsilə şeirlər həsr etdiyim Qarabağ torpağı, meşələrinin nəğməsini dinlədiyim, dağlarının havasını udduğum, buz bulaqlarının suyunu içib, qoynunda dincəldiyim Ağdam, Şahbulaq, Abdal Gülablı cənnəti üzərində yağdırılan raket, top mərmilərinin ağrısı mənim ürəyimdən keçir" (s. 280).

Milli dərdimizə, milli ordumuza, qəhrəman oğullarımıza həsr etdiyi "Ağla kamanım, ağla", "Qoymayın ağlayım məni", qanlı Yanvar günlərinə yazdığı "Öpün bu qanlı torpağı", "Şəhidlər qəbristanında", "Qanlı yanvar bayatıları" və digər əsərlərində mənsub olduğu xalqın hisslərini, həyəcanlarını ifadə edir, fərdi sayıla biləcək mövzularda da məhz xalqın tarixi taleyi ilə bağlı məsələləri qaldırırdı:

Sən ey Odlar elimiz!...
Ayaq üstə möhkəm dur,
Nə qədər ki, sən varsan!
Yıxılsan tapdanarsan!
Ey od, işıq məbədi!
Bu işığın odunda
Döyüşdəsən əbədi (s. 280)

Həmin dövrü geniş planda xarakterizə edən tənqidçi, ədəbiyyatşünas Elçin yazırdı: "Əlbəttə zaman çox kəskin dəyişmişdir, bu gün xalqın milli varlığının ifadəsi və müdafiəsi, ərazi bütövlüyünü qurmaq əzmi, tam müstəqillik və sosial ədalət uğurundakı mübarizəsi, ideoloji hegemonluğa qarşı çıxması elə bil ki, ədəbi prosesi şok vəziyyətinə salıb, lakin bir həqiqət var: xalqın mübarizəsi və inkişafı sinxronluq, birtərəflilik tələb edir: siyasi mübarizə, iqtisadi mübarizə ədəbi mübarizə" (s. 187).

Şairin "Məhsəti" və "Əlcəzairli qız" poemaları süjetinin genişliyi, məzmun və mündəricəsinin zənginliyi baxımından seçilən əsərlərdir.

"Məhsəti" poeması məşhur rübai ustadı Məhsəti Gəncəvinin həyatından, ədəbi və ictimai fəaliyyətindən bəhs edir. M.Dilbazi Məhsətinin yaşadığı ictimai və ədəbi mühiti mükəmməl öyrənmiş, böyük rübai ustasının əməl və arzularını, Vətən həsrəti ilə alışıb-yanan şairənin obrazını bədii boyalarla əks etdirmişdir:

Ey bahar elçisi, tənha qaranquş!
Gördünmü boş qalan bizim eyvanı?
Orda mənim kimi yuvanmı qaldı?
Mənim kimi elin, obanmı qaldı? (s. 310)

M.Dilbazi sənətinin bir xüsusiyyəti də çox qiymətlidir. Əsərlərində qadın təbiətinin bütün nəcib və işıqlı duyğularını hər cür qabarma və çəkilmələri ilə ifadə edir. Mirvarid xanım bir el anası kimi hələ təqribən 20 il bundan öncə yüksək mənəvi tələblərə cavab verən, sözün əsl mənasında Vətənin, ana

torpağının unudulmaz qəhrəman oğlunu Heydər Əliyevin timsalında görmüş və onu ürəkdən tərənnüm etmişdi:

Canında canımız,
Qanında qanımız olan oğul!
Oğullar arasında
Şəklinə baxdım neçə yol,
Gözlərim işıqlandı –
Oğul qarşısında
Ana dayandı
Dərin kamallım,
İncə xəyallım,
Böyük ürəklim,
Uca boylum,
Enli kürəklim,
Dünya qarşısına çıxan mərdim!
Sənə bir çələng hörərdim –
El məhəbbətindən olardı çiçəkləri,
Zaman soldurmayır
El hördüyü çələngi (s. 280).

1980-ci illərin əvvəllərində vətənin bu qüdrətli oğlu 30-cu illər repressiyası vaxtı "xalqımızın sinəsinə çəkilmiş çalın-çarpaz dağlardan birinin üstünə məlhəm qoyanda" M.Dilbazinin həssas qəlbi yenə də təlatümə gəldi və o, "Oğul qeyrətli" adlı yeni şeirini yazdı:

Cavidi vətəninə gətirən oğul,
Onu öz xalqına yetirən oğul,
Xalqının misilsiz qayğılarını,
Öz çiyni üstünə götürən oğul... (s. 280)

Dilbazinin yaradıcılığı ancaq lirik şeirlərdən ibarət deyildir. O, hələ gənc yaşlarından süjetli şeirə meyl göstərmiş, lirik duyğularını həyatdan alınan epik süjetlərlə tamamlamışdır. "Ayişənin anası", "Xatirələr" (1935), "Kamal" (1935), "Ağarzayev" (1942), "Aliyə", "Məhsəti" (1940-1945) "Əlcəzairli qız" (1962) kimi epik poeziya nümunələrindən sonra 1980-90-cı illərdə o, "Avey dağı ilə söhbət", "Bu bəla hardan gəldi", "Kor şair", "Fani dünya", "Həyatımdan parçalar" və digər poemalarını yazmışdır. "Həyatımdan parçalar"da xalqımızın başına gələn taleyüklü hadisələr fonunda şair öz ibrətamiz həyat tarixçəsini açıqlamışdır. "Fani dünya" əsəri isə dünyasını artıq dəyişmiş sənət bahadırlarımız haqqında miniatür rekviyemlər silsiləsidir. Bu epik əsərlərdən biri də "Avey dağı ilə söhbət" şeiri xüsusilə diqqətə layiqdir.

XX əsrin böyük Azərbaycan şairi Seyid Məmmədhüseyn Şəhriyarın 1950-ci ildə qələmə aldığı "Heydərbabaya salam" poeması bütün Yaxın Şərqdə böyük əks səda doğurmuş, bu nadir sənət incisinə İranda, Azərbaycanda, Türkiyədə, İraqda, Orta Asiya ölkələrində çoxlu əsərlər həsr edilmiş, nəzirələr

yazılmışdır. Hələ o vaxtlar akademik Bəkir Nəbiyev məqalələrinin birində haqlı olaraq yazırdı:

"Vaxtilə Füzulinin qəzəlləri bir sıra ölkələrin qədim təfəkkür dəryasını qarşısıalınmaz bir qüvvə ilə dalğalandırıb, cuşa gətirdiyi kimi "Heydərbabaya salam" poeması da bizim qohum ədəbiyyatları belə təxərrüşə gətirmişdi". (Məruzə) 9 Mirvarid xanımın "Avey dağı ilə söhbət"i isə Güney Azərbaycanda "Heydərbabaya salam"a cavab olaraq yazılmış birinci qiymətli poemadır.

Şəhriyar kimi Mirvarid xanım da əsərlərinin ilk misralarını dağa müraciətlə başlayır:

Avey dağı, mən zirvəndə itəydim,
Bir gül olub sinəndəcə bitəydim,
Ney olaydım, o dağlarda bitəydim,
Danışaydım, nələr keçib başımdan.
Gah su axıb, gah qan axıb sinəmdən.

Bu poemanın birinci hissəsində, imperiyaların əli ilə xalqımızın başına gətirilən böyük bəlalar, əzablardan danışılırsa, ikinci hissədə isə şairin uşaqlıq xatirələri prizmasından süzülüb gələn təcəssümüdür. Bütün bunların mərkəzində M. Dilbazinin özünün ümumiləşdirilmiş obrazı durur:

İndi budur, sahilində Xəzərin,
Bir qoca var, fikrə gedib çox dərin,
Həsrətində o ayların, illərin.
Ana deyən bir uşağa dönübdür,
Boy kiçilib, lap yumağa dönübdür (s. 280).

Boynunun kiçilməsi ilə lirik qəhrəmanın təkcə təbii, fiziki təbəddülatının nəticəsi deyil, xalqın ağır dərd yükünü on illər boyu təmkinlə daşımasının nəticəsidir. Yadınızdadırmı, Mirvarid xanımın Füzuli babası vaxtı ilə demişdi: "Dərdim o qədər ağırdır ki, dəvəyə yükləsən nazilib iynənin deşiyindən keçər".

Nədir bu qəhrəmanı dərdə salan? Mirvarid xanımın poemasında bolşevik-daşnak işğalından sonra Azərbaycanın başına gələn ümumxalq faciələrinin oxucusunu sarsıdan bəzi nəticələri əsas yer tutur. Bu beytləri oxuyarkən azərbaycanlıların Ermənistan ərazisindəki dədə-baba torpaqlarından zorla deportasiya edilməsinə siyasi qiymət verilməsi haqqında möhtərəm Prezident Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli fərmanı yada düşür: Moskvanın təhriki ilə Zəngəzur, Dilican, Vedibasar, Mehri kimi Azərbaycan ərazilərinin, o cümlədən də mübarək dilimizin günəşi mənasını verən Şəmsəddin mahalının vaxtı ilə başqa ölkəyə ilhaq edilməsi Azərbaycan tarixinin ən müdhiş səhifələrini təşkil edir:

Avey dağım, gözü yaşsız ağlaram,
Sinəsini tufan oymuş dağlaram,
Torpağını yaran üstə bağlaram,
Zaman vuran ağrıları alarsan,
Sən təbibim, sən dərmanım olarsan.

Lakin bu əsər üçün ah-nalə yox, nikbin ruh həlledicidir:

Avey dağım, xoş güllərdən danışaq,
O toylardan, düyünlərdən danışaq,
Al duvaqlı gəlinlərdən danışaq,
Qoy aşıqlar sazla-sözlə yarışsın,
Söhbət saza, saz söhbətə qarışsın.

## ƏDƏBİYYAT


1. Dilbazi M. Biz od üstündə doğulduq. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 280 s.
2. Nəbiyev B. Sarsılmaz inam. M.Dilbazi. Seçilmiş əsərləri, I c. Bakı: Yazıçı, 1982, 317 s.
3. Dilbazi M. Seçilmiş əsərləri, 2 cilddə, I c. Bakı: Yazıçı, 1982, 324 s.
4. Barat Vüsal. Ürəyi eldə olan sənətkar. "Ədəbiyyat" qəz., 2012, 18 avqust, s. 6.
5. Abdullayev C. Milli özünəqayıdış dövründə ədəbiyyat. Müasir Azərbaycan ədəbiyyatı 2 cilddə, II c. BDU, 2007, 564 s.
6. Elçin. Ədəbi proses: olum ya ölüm (birinci məqalə). Bakı: Təhsil, 1999, 410 s.
7. Dilbazi M. Seçilmiş əsərləri. 2 cilddə, I c. Bakı: Azərnəşr, 1967, s. 310.
8. Nəbiyev B. Seçilmiş əsərləri. 5 cilddə. IV c. Bakı: Çinar-çap, 2009, s. 556.
9. Nəbiyev B. Poeziyasının ağbirçəyi (Yubilyarın yubileyindəki məruzəsi). Bakı, 24 aprel, 1998.


## ЖИЗНЬ, НАЧАВШАЯСЯ С ГОРЫ МУСАГЕЛЬ


**И.С.АЛИЕВА**


## РЕЗЮМЕ


Среди известных писателей, пришедших в мир поэзии в 30-х годах таких как С.Вургун, М.Мушфиг, С.Рустам, Р.Рза, М.Рагим, О.Сарывелли особое место занимала М.Дильбази одна из первых основоположников современной азербайджанской поэзии.

С начала творческой деятельности М.Дильбази в своих произведениях достойно защищала интересы поэзии, была верна принципам писателя и читателя.

В настоящей статье описывается тематика и содержание лирических и эпических поэзий М.Дильбази.



**Ключевые слова:** горизонт, века, литературный процесс, эхо


## THE LIFE BEGINNING FROM THE MOUNTAIN MUSAGEL


**I.S.ALIYEVA**


## SUMMARY


The Azerbaijani writers and poets such as S.Vurghun, M.Mushfig, S.Rustam, R.Rza, M.Rahim, O.Sarivalli – M.Dilbazi who came to poetry in their thirties, hold one of the prominent places in the modern Azerbaijani poetry.

M.Dilbazi is one of the poets who laid the foundation of the Azerbaijani poetry. The article describes the essence of M.Dilbazi's lyrical and epic poetry.



**Key words:** horizon, literary activity, reverberation